*20 Yanvar faciəsi mənim üçün xalqımızın ən ağır faciəsidir. Amma eyni zamanda 20 Yanvar Azərbaycan xalqının mərdlik, qəhrəmanlıq və şəhidlik zirvəsinə qalxmasının əyani nümayişidir.*

**Heydər ƏLİYEV**




# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 21 yanvar 2017-ci il № 5 (2122) Qiyməti 25 qəpik


# Azərbaycan Prezidenti İlham Əliyev şəhidlərin əziz xatirəsini yad edib





*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 20-də - Ümumxalq Hüzn Günündə Şəhidlər xiyabanında 20 Yanvar şəhidlərinin xatirəsini yad edib.*

Qara Yanvar hadisələrindən 27 il keçir. 1990-cı il yanvarın 20-si Azərbaycanın müasir tarixinə ən faciəli günlərdən biri, eyni zamanda, xalqımızın qəhrəmanlıq səhifəsi kimi daxil olub, milli müstəqillik, azadlıq uğrunda mübarizəsinin və yenilməz iradəsinin rəmzinə çevrilib. Təpədən-dırnağadək silahlanmış keçmiş Sovet ordusunun cəza tədbirlərinə məruz qalan xalqımız azadlıq əzmini itirməmiş, əksinə, haqq səsini daha ucadan bəyan etmişdi. Düz 27 il əvvəl doğma yurdunun, xalqının azadlığını, şərəf və ləyaqətini hər şeydən uca tutan vətənpərvər Azərbaycan övladları həmin müdhiş gecədə canlarından keçərək şəhidlik zirvəsinə ucaldılar. Sovet qoşunlarının Azərbaycanda törətdiyi qanlı qırğından uzun illər keçməsinə baxmayaraq, xalqımız o dəhşətli günlərin ağrı-acısını unutmur, öz vətəndaşlarına divan tutan Sovet imperiyasının o vaxtkı rəhbərlərinə və onların Azərbaycandakı nökərlərinə dərin nifrətini bildirir.

Keçmiş SSRİ rəhbərliyinin Azərbaycana qarşı qərəzli, ermənipərəst siyasətinə, əzəli torpaqlarımıza iddia edən Ermənistanın təcavüzkar siyasətinin açıq-aşkar dəstəklənməsinə və respublikanın o zamankı rəhbərliyinin xəyanətkar mövqeyinə etiraz əlaməti olaraq ayağa qalxmış geniş xalq kütlələrinə qarşı Sovet ordusunun iri hərbi birləşmələrinin yeridilməsi Azərbaycanda, xüsusilə Bakıda misli görünməmiş faciəyə gətirib çıxardı, böyük itkilərlə, günahsız insanların ölümü ilə nəticələndi. Buna baxmayaraq, Azərbaycanın o vaxtkı səriştəsiz, kölə psixologiyalı rəhbərlərinin yenə də xalqla bir olmağa cəsarəti çatmadı və onlar Sovet rəhbərliyinin ətəyindən yapışmaqda davam etdilər.

Onlardan fərqli olaraq, həmin vaxt Moskvada yaşayan xalqımızın dahi oğlu Heydər Əliyev həyatını təhlükədə qoyaraq, faciənin ertəsi günü Azərbaycanın daimi nümayəndəliyinə gələrək, Qanlı Yanvar qırğınını törədənləri pisləyən kəskin bəyanatla çıxış etdi, xalqımızın başına gətirilən müsibəti dünyaya çatdırdı. Bununla da Ulu Öndər cəsarətini, mərdliyini, xalqının sədaqətli oğlu olduğunu bir daha sübut etdi.

Əlbəttə, ermənilərin fitvası ilə törədilmiş bu cinayət Azərbaycan xalqının iradəsini qıra, azadlıq eşqini söndürə bilmədi. Xalqımız qanı bahasına da olsa istəyinə - azadlıq və müstəqilliyinə qovuşdu və bu nailiyyəti heç vaxt əlindən verməyəcəkdir.

Keçmiş Sovet hərb maşınının Azərbaycanda törətdiyi qanlı qırğın mahiyyətinə görə dövlətin öz vətəndaşlarına qarşı tarixdə misli görünməmiş təcavüzü, qətliamı idi. Keçmiş SSRİ və Azərbaycan SSR konstitusiyalarının kobudcasına pozulması, ayaqlar altına atılması idi. Həmin gün keçmiş SSRİ dövləti dinc əhalinin üstünə qoşun yeritməklə BMT Nizamnaməsinə, beynəlxalq hüquq normalarına məhəl qoymamış, iştirakçısı olduğu Mülki və Siyasi Hüquqlar Haqqında Beynəlxalq Paktın bir sıra müddəalarını cinayətkarcasına pozmuşdu.

Xalqımızın ümummilli lideri Heydər Əliyevin Azərbaycan rəhbərliyinə yenidən qayıdışından sonra, 1994-cü ildə 20 Yanvar hadisələrinə siyasi-hüquqi qiymət verildi və cinayəti törədənlərin adları ictimaiyyətə çatdırıldı. 20 Yanvar - Ümumxalq Hüzn Günü elan edildi.

Azərbaycan xalqı hər il 20 Yanvar faciəsi qurbanlarının xatirəsini dərin ehtiramla yad edir.

* * *

Yanvarın 20-də səhər Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Qanlı Yanvar faciəsində həlak olanların əziz xatirəsini yad etmək üçün Şəhidlər xiyabanına gəldi.

Dövlətimizin başçısı "Əbədi məşəl" abidəsinin önünə əklil qoydu.

Müdafiə Nazirliyinin əlahiddə nümunəvi hərbi orkestrinin ifasında Azərbaycanın Dövlət himni səsləndi.

* * *

Dövlət və hökumət rəsmiləri, respublikamızdakı dini icmaların başçıları, xarici ölkələrin Azərbaycandakı səfirləri, beynəlxalq təşkilatların nümayəndələri də şəhidlərin əziz xatirəsini yad etməyə gəlmişdilər.

* * *

Şəhidlər xiyabanının ziyarət olunması mərasimində Baş nazir Artur Rasi-zadə, Milli Məclisin sədri Oqtay Əsədov, Prezident Administrasiyasının rəhbəri Ramiz Mehdiyev iştirak edirdilər.

**AZƏRTAC**

AZƏRBAYCAN ORDUSU

# Şəhidlərimizin xatirəsinə hörmət və ehtiramla

## Müdafiə Nazirliyinin şəxsi heyəti Şəhidlər xiyabanını ziyarət edib

*Azərbaycan Respublikası Müdafiə Nazirliyinin rəhbərliyi və şəxsi heyəti 20 Yanvar Ümumxalq Hüzn Günü ilə əlaqədar Şəhidlər xiyabanını ziyarət edib. Hərbi qulluqçular Vətənin azadlığı, müstəqilliyi uğrunda şəhid olmuş vətəndaşlarımızın xatirəsini hörmət və ehtiramla yad edib, məzarları üzərinə gül dəstələri qoyublar.*



Azərbaycanın nisbətən yaşlı nəsillərinin şahidi və iştirakçısı olduğu qanlı şənbə qətliamından nə az-nə çox, 27 il ötür. 1990-cı ilin yanvar qırğını nə qədər faciəli olsa da, Azərbaycan xalqının iradəsini, milli azadlıq uğrunda mübarizə əzmini qıra bilmədi. Həmin müdhiş gecədə həlak olan günahsız insanlar totalitar Sovet rejiminin və onun Mixail Qorbaçov kimi insanlıqdan uzaq rəhbərlərinin maskasını yırtdı və onların qəddar simasını gec də olsa, dünyaya göstərdi.

Azərbaycan xalqına qarşı törədilmiş dəhşətli cinayətə haqq qazandırmaq üçün Moskva miflər də uyduraraq SSRİ və dünya ictimaiyyətinin diqqətinə təqdim etmişdi. Guya hərbi kontingent Bakıya erməni və rusları qorumaq, hakimiyyətin zorakılıqla ələ keçirilməsinin qarşısını almaq üçün yeridilmişdi. Azadlıq və müstəqillik istəyən keçmiş Sovet respublikalarına ibrətamiz dərs vermək, onları qorxutmaq üçün imperiya rəhbərliyi tərəfindən "ən zəif həlqə" Azərbaycan seçilmişdi. Ölümə məhkum imperiyanı xilas etməkdən ötrü görünməmiş cəza aksiyasının gerçəkləşdirilməsi üçün rejimin özünün təxribatçılığı ilə "zəmin" hazırlanmışdı.

Törədilən vəhşiliklərdən dinc əhalini müdafiə etməyə çalışan Azərbaycan polisi də itkilər vermişdi. Həmin gecə öz xidməti vəzifəsini yerinə yetirən 5 polis işçisi qəhrəmancasına həlak olmuşdu. Beləcə öz ölkəsinin ərazi bütövlüyünü, xalqının azadlığını, şərəf və ləyaqətini hər şeydən uca tutan və bununla imperiya rəhbərliyini qorxuya salan çoxsaylı Azərbaycan övladı həmin müdhiş gecədə və ondan sonrakı günlərdə imperiyanın göndərdiyi qatillərin törətdiyi qırğın nəticəsində əbədiyyətə qovuşdu.

Qanlı Yanvar hadisələri Sovet rejiminin qəddarlığına və cinayətin miqyasına görə 1956-cı ilin Budapeşt, 1968-ci ilin Praqa, o cümlədən 1989-cu ilin Tbilisi, 1991-ci ilin Riqa və Vilnüs hadisələrindən heç də geri qalmır. Bakıda dinc əhaliyə qarşı keçirilən cəza tədbirləri zamanı 1949-cu ilin Cenevrə Konvensiyasının, Beynəlxalq Hərbi Tribunalın Əsasnaməsinin, Beynəlxalq İnsan Haqları Bəyannaməsinin, insan haqlarına dair digər beynəlxalq aktların çoxsaylı müddəaları pozulmuşdu.

Amma milli azadlığı, ölkəsinin ərazi bütövlüyü uğrunda mübarizəyə qalxmış dinc əhaliyə divan tutulması, yüzlərlə günahsız insanın qətlə yetirilməsi və yaralanması totalitar Sovet imperiyasının süqutunu daha da yaxınlaşdırdı.

Faciənin ertəsi günü - 1990-cı il yanvarın 21-də görkəmli dövlət xadimi Heydər Əliyev Azərbaycanın Moskvadakı daimi nümayəndəliyinə gələrək, etiraz səsini ucaltdı. O, mətbuat konfransı keçirdi, xarici ölkələrin KİV nümayəndələrinin qarşısında Sovet rəhbərliyinin Azərbaycan xalqına qarşı təcavüzünü konkret faktlarla pisləyən bəyanat verdi. Bu bəyanatla ulu öndər Heydər Əliyev ilk olaraq 20 Yanvar faciəsinə bir azərbaycanlı olaraq kəskin münasibətini bildirdi.

Ümummilli lider Heydər Əliyev ölkəmizə rəhbərlik etdiyi illərdə, daha doğrusu, 2000-ci ildə "20 Yanvar faciəsinin 10-cu ildönümü haqqında" imzaladığı fərmanında məlum hadisələrə birmənalı qiymət verib. "Azərbaycanın ərazi bütövlüyünün pozulması cəhdlərinə, keçmiş SSRİ rəhbərliyinin Azərbaycan xalqına qarşı apardığı ədalətsiz və qərəzli siyasətə, yerli rəhbərliyin yarıtmaz fəaliyyətinə etiraz əlaməti olaraq küçələrə çıxmış dinc əhaliyə divan tutmaq məqsədilə Bakıya və respublikanın bir neçə rayonuna qanunsuz olaraq Sovet qoşun hissələri yeridildi. Görünməmiş qəddarlıqla həyata keçirilən cəza tədbirləri nəticəsində Azərbaycanın yüzlərlə günahsız vətəndaşı yaralandı və qətlə yetirildi. Bununla Azərbaycan xalqına qarşı kütləvi terror aktı həyata keçirildi."

Müstəqilliyimiz uğrunda canından keçmiş soydaşlarımızın xatirəsini Azərbaycan xalqı həmişə əziz tutur. Hər il yanvar günlərində minlərlə insan Şəhidlər xiyabanını ziyarət edir və azadlığımız üçün canından keçmiş vətəndaşlarımızı hörmət və ehtiramla xatırlayır.

**"Azərbaycan Ordusu",**
**foto**
**Natiq İSAYEVİNDİR**

# 20 Yanvar həm də birlik günüdür




Respublika Veteranlar Təşkilatının nümayəndələri, İkinci Dünya, Qarabağ, Əfqanıstan müharibəsi, Əmək və Silahlı Qüvvələr veteranları 20 Yanvar - Ümumxalq Hüzn Günü ərəfəsində Şəhidlər xiyabanını ziyarət edib və Əbədi Məşəl kompleksi önünə gül çələngi qoyublar.

Sonra Respublika Veteranlar Təşkilatında anım tədbiri keçirilib.

Əvvəlcə ümummilli lider Heydər Əliyevin, 20 Yanvar şəhidlərinin, həmçinin Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda canlarından keçmiş bütün şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad olunub.

Ziyalıların və media nümayəndələrinin də qatıldığı tədbiri giriş sözü ilə Azərbaycan Respublikası Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının sədr müavini, ehtiyatda olan polkovnik Cəlil Xəlilov açıb. O, Azərbaycan tarixinin qəhrəmanlıq səhifələrindən sayılan 20 Yanvar hadisələri ilə bağlı geniş məlumat verib. Bu faciənin təməlinin hələ 1987-ci ilin oktyabrında ermənilərin Azərbaycana qarşı torpaq iddialarının həyata keçirilməsinə mane olan ulu öndər Heydər Əliyevin ittifaq rəhbərliyindən uzaqlaşdırılması ilə başlandığını bildirən natiq qeyd edib ki, 20 Yanvar Azərbaycan xalqının milli azadlıq və demokratiya uğrunda mübarizəsini boğmaq, xalqa ağır mənəvi zərbə vurmaq məqsədilə qabaqcadan düşünülüb hazırlanmış təcavüzkarlıq aksiyası idi. "Bu qanlı faciəni törədənlər Azərbaycanın dövlət müstəqilliyinin bərpasının qarşısını bütün vasitələrlə almaq istəyirdilər. Ermənilərin əsas məqsədi isə Dağlıq Qarabağın Azərbaycandan alınaraq Ermənistana birləşdirilməsi idi. Bu məkrli planın ilk qurbanları Ermənistanda yaşayan azərbaycanlılar oldu. 1989-cu ilin sonunda Ermənistanda azərbaycanlılara qarşı son etnik təmizləmə həyata keçirilməklə, 230 min azərbaycanlı dədə-baba torpaqlarından qovuldu".

- 1989-cu ilin sonu, 1990-cı ilin yanvarında Azərbaycanda ictimai-siyasi vəziyyət kəskinləşdi, mövcud iqtidarın hadisələrə nəzarəti xeyli zəiflədi, hakimiyyət böhranı və qarşıdurma dərinləşdi - deyə polkovnik çıxışına davam etdi. - 1990-cı il yanvarın 19-na keçən gecə Bakıya qanunsuz olaraq, fövqəladə vəziyyət elan edilmədən yeridilən Sovet ordusunun bölmələri xalqımıza qarşı qətliam törətdilər.



İri hərbi kontingentin Bakını zəbt etməsi xüsusi qəddarlıq və misli görünməmiş vəhşiliklərlə müşayiət edildi, yüzlərlə vətəndaşımız şəhid oldu, xəsarət aldı və qanunsuz həbs olundu. Tanklar və BTR-lər qarşılarına çıxan hər şeyi amansız atəşə tutur, insanlar nəinki küçələrdə, öz mənzillərində güllələrə tuş gəlirdilər.

Natiq öz çıxışında vurğuladı ki, həmin ağır günlərdə ulu öndər Heydər Əliyev Azərbaycanın Moskvadakı daimi nümayəndəliyində çıxış edərək 20 Yanvar faciəsinə siyasi qiymət verdi, qanlı faciənin törədilməsinə görə məsuliyyət daşıyan ittifaq və respublika rəhbərliyini ittiham etdi.

"20 Yanvarın 1999-cu ildən etibarən Ümumxalq hüzn günü kimi keçirilməsinin Əmək Məcəlləsində əksini tapması da məhz ümummilli lider Heydər Əliyevin xidmətidir".

Tədbirdə çıxış edən Sabunçu rayon Veteranlar Təşkilatının sədri Elxan Mirzəyev, əmək veteranı Müseyib Bağırov və digər şəxslər də 20 Yanvarın Azərbaycan xalqının qəhrəmanlıq, birlik günü olduğunu və şəhidlərin xalqımızın yaddaşında əbədi yaşayacaqlarını qeyd ediblər.

**"Azərbaycan Ordusu"**

# Silahlı Qüvvələrin Baş Qərargah rəisi NATO-nun toplantısında iştirak edib



Yanvarın 17-də Müdafiə nazirinin birinci müavini - Silahlı Qüvvələrin Baş Qərargah rəisi general-polkovnik Nəcməddin Sadıkov Belçika Krallığının Brüssel şəhərində yerləşən NATO-nun mənzil-qərargahında Alyansın Hərbi Komitəsinin "Qətiyyətli dəstək" və "Uyarlılıq platforması" formatlarında Baş Qərargah rəisləri səviyyəsində keçirilən görüşlərdə iştirak edib.

Görüşlərdə Əfqanıstan İslam Respublikasındakı NATO-nun "Qətiyyətli dəstək" missiyasının gedişi və cari əməliyyat şəraitindəki təhlükəsizlik vəziyyəti, o cümlədən "Uyarlılıq platforması" çərçivəsində tərəfdaşlar ilə uyarlılığın daha da artırılması ilə bağlı yollar və bu məqsədə nail olmaq üçün müxtəlif fərdi yanaşmaların tətbiqi barədə müzakirələr aparılıb.



Səfər çərçivəsində Müdafiə nazirinin birinci müavini - Silahlı Qüvvələrin Baş Qərargah rəisi bir sıra ikitərəfli görüşlər də keçirib.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti**

## Azərbaycanın İƏT-dəki fəal rolu və təşkilatın işinə verdiyi töhfələr yüksək qiymətləndirilib

Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov Kuala-Lumpur şəhərində İslam Əməkdaşlıq Təşkilatının (İƏT) baş katibi Yusif Əl Osaymin ilə görüşüb.

Xarici İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, görüşdə Azərbaycan ilə İƏT arasında əməkdaşlığın hazırkı səviyyəsindən məmnunluq ifadə edilib və qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

Elmar Məmmədyarov İslam Əməkdaşlıq Təşkilatı çərçivəsində Ermənistanın Azərbaycana qarşı təcavüzünə dair Kontakt Qrupunun yaradılmasının və onun ilk təsisat iclasının keçirilməsinin təqdirəlayiq olduğunu diqqətə çatdırıb. O, həmçinin Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı ölkəmizin haqlı və ədalətli mövqeyinin beynəlxalq hüququn norma və prinsiplərini əsas tutaraq birmənalı şəkildə dəstəklənməsinə və bu xüsusda qəbul edilmiş qətnamə və bəyanatlara görə İƏT baş katibinə və üzv dövlətlərə təşəkkürünü bildirib.

Görüşdə İƏT-in gündəliyində duran mövzular, Rohinqa müsəlmanlarının vəziyyəti, terrorizmə və islamofobiya meyillərinə qarşı mübarizə kimi məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

## Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

### Ermənistan silahlı birləşmələri atəşkəs rejimini pozub

***19 yanvar 2017-ci il.***

Erməni silahlı bölmələri cəbhənin müxtəlif istiqamətlərində sutka ərzində atəşkəs rejimini ümumilikdə 40 dəfə pozub.

Ermənistan Respublikası Noyemberyan rayonunun Dovex, Voskevan, İcevan rayonunun Paravakar kəndlərində yerləşən mövqelərdən Qazax rayonunun Kəmərli, Quşçu Ayrım kəndlərində və adsız yüksəkliklərdə, Berd rayonunun Ayqepar, Çinari kəndlərində yerləşən mövqelərdən Tovuz rayonunun Əlibəyli, Ağbulaq kəndlərində yerləşən mövqelərimiz atəşə tutulub.

Tərtər rayonunun işğal altında olan Çiləbürt, Ağdam rayonunun Yusifcanlı, Füzuli rayonunun Aşağı Seyidəhmədli, Horadiz kəndləri yaxınlığında, həmçinin Goranboy, Tərtər, Xocavənd, Füzuli və Cəbrayıl rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də Silahlı Qüvvələrimizin mövqeləri atəşə tutulub.

***20 yanvar 2017-ci il.***

Erməni silahlı bölmələri cəbhənin müxtəlif istiqamətlərində sutka ərzində atəşkəs rejimini ümumilikdə 42 dəfə pozub.

Ermənistan Respublikası Berd rayonunun Mosesqex, Çinari kəndlərində yerləşən mövqelərdən Tovuz rayonunun Ağdam, Koxanəbi, Ağbulaq kəndlərində, Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Tərtər rayonunun işğal altında olan Göyarx, Çiləbürt, Ağdam rayonunun Mərzili, Cavahirli, Xocavənd rayonunun Kuropatkino, Füzuli rayonunun Aşağı Seyidəhmədli, Horadiz, Qorqan, Qaraxanbəyli, Cəbrayıl rayonunun Mehdili kəndləri yaxınlığında, həmçinin Goranboy, Tərtər, Xocavənd və Füzuli rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də Silahlı Qüvvələrimizin mövqeləri atəşə tutulub.

*Döyüş hazırlığı*

# "Əsgər qələbənin təminatçısıdır"

*Ordu müqəddəs vəzifəni yerinə yetirir... Ordu Vətənin qoruyucusu, düşmənə göz dağıdır. Hər bir dövlətin mövcudluğu, təhlükəsizliyi məhz həmin ölkənin hərbi qüvvələrinin çiynindədir. Mürəkkəb coğrafi regionda yerləşən Azərbaycan tarixən xarici dövlətlərin, mənfur düşmənlərin diqqət mərkəzində olub. Bu səbəbdən də ordu quruculuğu dövlətin prioritet məsələsidir və hərbi sahəyə daim xüsusi diqqət və qayğı göstərilir. Ümummilli lider Heydər Əliyev xalqın istəyi ilə yenidən hakimiyyətə gəldiyi dövrdən ölkəmizdə ordu quruculuğu prosesi başladı. Nizami ordu yaradıldı, hərbi təhsildə islahatlar aparıldı. Nəticədə Azərbaycanda güclü ordu formalaşdırıldı və hazırda Ali Baş Komandan İlham Əliyevin xüsusi diqqəti sayəsində Azərbaycan Silahlı Qüvvələri regionun ən güclü ordusuna çevrilib.*



...Orduda günü-gündən islahatlar aparılır, maddi-texniki təminat gücləndirilir. Bununla da Silahlı Qüvvələrimiz daha da güclənir, il ərzində böyük təlimlər keçirilir. Bu təlimlərdə şəxsi heyətin bacarığı sınağa çəkilir, döyüş vərdişləri möhkəmləndirilir.

Hərbi hissədə ezamiyyətdə olduğumuz zaman növbəti məşğələni baş leytenant Nizami Əliyev keçirirdi. Manqa komandiri kiçik çavuş Elçin Nəcəfov, əsgərlərdən Məhəmməd İbrahimov, Əlisahib Quliyev və Nurlan Məmmədov minaatanı məsafəölçən qurğusu vasitəsilə atəş açmağa hazırlayırdılar. Gənc zabit söhbətində bildirdi ki, əsgərlər məşğələlərdə fəal iştirak edir və hərbi sirlərə yiyələnməyə can atırlar. Məşğələlərdə fəal iştirak edənlərin adlarını çəkən taqım komandiri bildirdi ki, öz vəzifəsinin öhdəsindən gələn hər bir əsgər düşmən üzərində qələbənin təminatçısıdır.

- Əsgərlər məşğələlərdə minaatan silahın texniki xassələrini, hədəfi vurma sirlərini, döyüş zamanı hücum və müdafiə taktikasını öyrənirlər. Şəxsi heyət təlim zamanı təcrübə toplayır, peşəkarlığını artırır. Peşəkar əsgər isə döyüş meydanından daim üzüağ çıxır. Təcrübə göstərir ki, düşmən qarşısındakı ordunun həm texnika, həm döyüş, həm fiziki, həm də psixoloji hazırlıq cəhətdən yüksək olduğunu bildikdə sarsılır. Bu gün Azərbaycan əsgərinin döyüş və mənəvi-psixoloji hazırlıq cəhətdən yüksək olduğunu bilən Ermənistanın rəhbərliyi vahimədədir. Çünki Ali Baş Komandan əmr verdiyi gün torpaqlarımızı azad etmək qüdrətində olduğumuzu çox yaxşı bilir.

Kiçik çavuş Elçin Nəcəfov söhbətə qoşularaq bildirdi ki, təlimlər ordumuzun müasir döyüşün ən mürəkkəb tapşırıqlarını belə müvəffəqiyyətlə yerinə yetirməyə hazır olduğunu, onun döyüş qabiliyyətinin və peşəkarlığının, yeni silah sistemlərindən və döyüş texnikasından ustalıqla istifadə etmək bacarığının əhəmiyyətli dərəcədə artdığını sübuta yetirən əsas vasitədir. "Hər birimiz bizə göstərilən etimadı doğrultmağa çalışırıq. Bölməmizi daim döyüşə hazır vəziyyətdə saxlayır, hər məşğələdə yeni təcrübə qazanırıq."

Əsgərlər Məhəmməd İbrahimov, Əlisahib Quliyev, Nurlan Məmmədov və başqaları da hər an döyüşə hazır olduqlarını bildirərək, Ali Baş Komandanın əmri ilə növbəti qələbələrə imza atacaqlarına söz verdilər.

Görüşdüyümüz əsgərlərdə yüksək döyüş ruhunun, vətənpərvərlik və qorxmazlıq hisslərinin bir daha şahidi olduq.

**Baş leytenant Ceyhun CƏFƏRLİ, "Azərbaycan Ordusu", foto Coşqun CƏFƏROVUNDUR**

# "20 Yanvar tariximizin qəhrəmanlıq səhifəsidir"

*Müdafiə nazirinin təsdiq etdiyi tədbirlər planına əsasən, Silahlı Qüvvələrin hərbi hissə və birləşmələrində 20 Yanvar hadisələrinin 27-ci ildönümü ilə bağlı silsilə tədbirlər keçirilib.*

*Əvvəlcə ümummilli lider Heydər Əliyevin, 20 Yanvar şəhidlərinin, həmçinin Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda canlarından keçmiş bütün şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad edilib, Azərbaycan Respublikasının Dövlət himni səsləndirilib.*



Yanvarın 18-də Azərbaycan Hərb Tarixi Muzeyində 20 Yanvar faciəsinin 27-ci ildönümünə həsr olunmuş "20 Yanvar - tariximizin qəhrəmanlıq səhifəsidir" adlı anım mərasimi keçirildi. Müdafiə Nazirliyinin ayrı-ayrı hissə və bölmələrinin nümayəndələri, Cəmşid Naxçıvanski adına Hərbi Liseyin kursantları və digər qonaqlar tədbirə dəvət edilmişdilər.



Muzeydə 20 Yanvar hadisələrinə həsr edilmiş guşə fəaliyyət göstərir və hərb tariximizlə maraqlananlar 1990-cı ildə imperiya rəhbərliyinin xalqımıza qarşı törətdiyi qanlı qırğınlar barədə burada da xeyli məlumat almaq imkanına malikdirlər.

Muzeyin rəisi, ehtiyatda olan polkovnik Əzizağa Qənizadə çıxışında 1990-cı ilin yanvarında baş vermiş hadisələrin Azərbaycan tarixinə həm hüzn, həm də qürur günü kimi daxil olduğunu bildirdi. 27 il öncə baş vermiş hadisələrin səbəbləri və nəticələri barədə ətraflı danışan natiq xalqımıza qarşı törədilmiş qanlı qırğını qəddarlığına və amansızlığına görə SSRİ rəhbərliyinin 1956-cı ildə Macarıstanda, 1968-ci ildə keçmiş Çexoslovakiyada törətdiyi cəza aksiyası ilə müqayisə etdi və bildirdi ki, 20 Yanvar bəşər tarixində Sovet rejiminin həyata keçirdiyi ən ağır cəza tədbirlərindən biri kimi qalacaq.

"Bakı küçələrində qan su yerinə axan gecənin səhəri vəzifəsindən kənarlaşdırılmış, təqiblərə məruz qalmış Heydər Əliyev mümkün repressiyadan çəkinmədən Moskvadakı Azərbaycan nümayəndəliyinə gələrək, ölkəmizdə törədilmiş qanlı aksiyaya kəskin etirazını bildirdi. Kremlin cəza dəstələrinin dəhşətli əməllərinə ilk dəfə ümummilli lider Heydər Əliyev tərəfindən həqiqi qiymət verilib", - deyə polkovnik bildirdi.

Azərbaycan Milli Elmlər Akademiyası Tarix İnstitutunun "Azərbaycanın yeni tarixi" şöbəsinin müdiri, tarix üzrə fəlsəfə doktoru Hacı Həsənov isə çıxışında vurğuladı ki, müstəqil dövləti olmayan xalqlara başqaları hökmranlıq edəndə belə qırğınlar baş verir. "Xoşdur ki, bu gün Azərbaycan müstəqil dövlətdir, qüdrətli ordusu var və öz taleyinin sahibidir".

Muzeyin baş elmi işçisi, tarix üzrə fəlsəfə doktoru Zəfər Kərimov da Qanlı Yanvar hadisələri barədə düşüncələrini mərasim iştirakçıları ilə bölüşdü.

20 Yanvar faciəsinə həsr edilmiş sənədli film 27 il öncə baş vermiş qırğınların gerçək miqyası barədə iştirakçılarda daha dolğun təsəvvür yaratdı.

* * *

1990-cı il 20 Yanvar... Bu gün Azərbaycan tarixində təkcə faciə deyil, Azərbaycanın istiqlal yolunun ilk zirvəsi, milli məfkurəmizin azadlıq istəyinin oyanış günü, uzun illər Sovet imperiyasının əsarətində yaşayan xalqın azadlıq səsini ucaltdığı, öz suverenliyi uğrunda cəsarət nümayiş etdirdiyi şərəfli bir tarixdir.

Respublikamızın bütün bölgələrində, Silahlı Qüvvələrimizin hərbi hissə və bölmələrində, təhsil ocaqlarında 20 Yanvar faciəsi qeyd edilir. "N" hərbi hissəsində də Həzi Aslanov adına Mərkəzi Zabitlər Evinin təşkilatçılığı ilə anım tədbiri keçirildi.

Tədbiri açıq elan edən polkovnik-leytenant Nəsrəddin İsgəndərov 20 Yanvar şəhidlərinin Azərbaycanın tarixinə parlaq səhifələr yazaraq xalqın azadlığı və müstəqilliyi üçün yollar açdığından danışdı. "...Həmin faciəli günlərdə ölkəsinin, xalqının azadlığını, şərəf və ləyaqətini öz həyatından belə yüksəkdə tutan, Bakıda olmamasına baxmayaraq, xalqının səsinə hər kəsdən əvvəl səs verən ümummilli liderimiz Heydər Əliyev yanvarın 21-də Azərbaycanın Moskvadakı daimi nümayəndəliyinə gələrək təcavüzə kəskin etirazını bildirdi, faciəni törədənləri kəskin ittiham etdi, qoşunların Bakıdan çıxarılmasını tələb etdi. Xalqımızın ümummilli lideri Heydər Əliyevin 1990-cı il 21 yanvar tarixli bəyanatı həm də faciəyə verilən ilk siyasi qiymət idi..."

Tədbirin aparıcıları Mədinə Məmmədova və Ehtiram Əhmədov Azərbaycan xalqının tarixinə Qanlı Yanvar faciəsi kimi daxil olmuş o günlərə bir daha nəzər salaraq bildirdilər ki, Azərbaycan xalqı həmin gün Sovet imperiyasına qarşı əliyalın, inamlı mübarizəyə qalxdı. "20 Yanvar faciəsi SSRİ-nin dağılma prossesində baş verən, hədəfində insanlıq adına dəyərləri yox etmək olan ən qanlı hadisələrdən biridir. Xalqın küçələrə axışması, mitinqlərdə iştirak etməsi, milli birlik və bərabərlik adına verilən bəyanatı suverenlik və müstəqillik istəyini 70 il ürəyində yaşatdığını bütün dünyaya göstərdi. O müdhiş gecədə Bakıda Sovet ordusu tərəfindən dinc əhaliyə qarşı dəhşətli, kütləvi qırğın hadisəsi törədildi. 1990-cı ilin yanvar qırğını nə qədər faciəli olsa da, Azərbaycan xalqının iradəsini, milli azadlıq uğrunda mübarizə əzmini qıra bilmədi. Həmin müdhiş gecədə həlak olan Vətənimizin igid oğul və qızları xalqımızın tarixinə parlaq səhifə yazdılar..."

Hüznə qarışıq qürurla anılan tarixi gün haqqında fikirlərini bölüşmək üçün söz alan Mərkəzi Zabitlər Evinin mədəni-kütləvi iş bölməsinin müdiri



Gülxar Məmmədova bildirdi ki, 1990-cı ilin 19-20 yanvar tarixlərində Bakıda tarix boyunca əmsalına ancaq orta əsrlərdə rast gələcəyimiz bir qırğın həyata keçirildi. "Təpədən-dırnağadək silahlanmış ordu hissələri Bakını işğal edərək dinc əhaliyə qarşı tanklarla, ağır silahlarla planlı şəkildə hücum təşkil etmişdi. Bu hücumlar qarşısında çaş-baş qalan Bakı əhalisi tanklar altında əzilərək, güllələrə tuş gələrək qətlə yetirilmişdi. Hər il olduğu kimi, yenə də xalqımız 20 Yanvar hadisələrinin ildönümünü qeyd edir, igid övladlarının fədakarlığını məhəbbətlə xatırlayır, onların əziz xatirəsini böyük ehtiramla yad edir..."



Tədbir Həzi Aslanov adına Mərkəzi Zabitlər Evinin yaradıcı kollektivinin, solistlər Günay Qasımovanın, Ağabala Abdullayevin, Nigar Rəhimovanın, Qoşqar Qasımovun, Fərman Əsgərovun ifaları və bədii qiraətçi Günel Babayevanın Bəxtiyar Vahabzadənin "Şəhidlər" poemasından söylədiyi şeirlə başa çatdı.

* * *

20 Yanvar faciəsi xalqın müstəqillik mübarizəsini dayandırmağa hesablanmışdı. İmperiya güman edirdi ki, bu qırğın xalqın iradəsini, əzmini qıracaq, milli-azadlıq hərəkatı məhv ediləcək. Lakin xalq illərlə aparılan gizlin, aşkar mübarizəsini sona çatdırmaq, Azərbaycanın dövlət müstəqilliyini bərpa etmək üçün müxtəlif təyinatlı silahlarla, döyüş texnikaları ilə irticaçı qoşunun qarşısını kəsdi. Bu, təkcə etiraz deyildi, həm də imperiyaya meydan oxumaq idi: ölərik, mübarizəmizi dayandırmarıq!

19 yanvar gecəsi imperiyanın qoşun hissələri Bakıya daxil oldu. Faciə törədildi. Dinc əhaliyə qarşı qadağan olunmuş güllələrdən istifadə edildi. O gecə yaralananları da güllələdilər, yaralılara kömək edənləri də, təcili yardım maşınlarını da, qocanı da, qadını da, uşağı da...

Lakin bu səviyyədə faciə xalqın mübarizə əzmini qıra bilmədi. Xalq şəhidlərin arzuladığı müstəqilliyə nail olununca mübarizə apardı. Az sonra Azərbaycanda müstəqillik haqqında Konstitusiya aktı qəbul edildi. Azərbaycanın dövlət müstəqilliyi bərpa edildi.

20 Yanvar faciəsi Lənkəran Zabitlər Evində də ehtiramla anıldı. Ssenari müəllifi Cəfər Fətullayev, rejissoru və aparıcısı xalq artisti Qabil Quliyev olan "Şəhidlik zirvəsi" ədəbi-bədii kompozisiya 20 Yanvar şəhidlərinə ehtiram idi. 5 saylı şəhər orta məktəbinin akt zalında təşkil edilən tədbirdə hərbçilər və məktəblilər, şəhər ictimaiyyətinin nümayəndələri iştirak etdilər. Məktəblilərin ifasında səslənən şeirlər, mahnılar şəhidlərimizin heç zaman unudulmayacağını təsdiqlədi.

Tədbirin sonunda Lənkəran Zabitlər Evinin rəisi polkovnik-leytenant Etibar Əliyev göstərilən köməyə görə təhsil şöbəsinin və məktəbin rəhbərliyinə təşəkkürünü bildirdi.

**(Ardı 5-ci səhifədə)**

# "20 Yanvar tariximizin qəhrəmanlıq səhifəsidir"

(Əvvəli 4-cü səhifədə)

Həzi Aslanov adına Mərkəzi Zabitlər Evinin kollektivi Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzində 20 Yanvar faciəsinə həsr edilmiş tədbir keçirdi. Tədbir 20 Yanvar hadisələrinə həsr edilmiş sənədli filmin nümayişi ilə başlandı. Mərkəzi Zabitlər Evinin mədəni-kütləvi iş bölməsinin müdiri Gülxar Məmmədova Azərbaycan xalqının azadlıq və müstəqillik tarixinə qəhrəmanlıq səhifəsi kimi yazılmış 20 Yanvar faciəsinin mahiyyəti ilə bağlı məlumat verdi: "1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə Sovet imperiyasının nəhəng hərb maşını müstəqillik uğrunda aparılan milli azadlıq mübarizəsini qan gölündə boğmaq üçün bir neçə istiqamətdən Bakı üzərinə yeridilmiş, XX əsrdə insanlığa qarşı törədilmiş zorakılığın, qeyri-insani rəftarın, işgəncələrin ən dəhşətlilərindən biri olmaqla, hər birimizin yaddaşına "qanlı şənbə gecəsi" kimi həkk olunan, yalnız yüzlərlə insana yox, bütövlükdə xalqımıza, millətimizə qarşı cinayət aksiyası həyata keçirilmişdi. 20 Yanvar faciəsi öz torpaqlarının müdafiəsinə qalxmış, haqsızlığa və ədalətsizliyə qarşı haqq səsini ucaltmış, bunun müqabilində güclü və qansız düşmənlə üz-üzə qalmış dinc, əliyalın insanların mərdlik, rəşadət, qürur və qəhrəmanlıq tarixidir. Ulu öndər Heydər Əliyev xalqın təkidli tələbi ilə ikinci dəfə hakimiyyətə qayıtdıqdan sonra 20 Yanvar hadisələri lazımınca qiymətləndirildi. 1990-cı il noyabrın 21-də böyük siyasi xadim Heydər Əliyevin rəhbərliyi ilə Naxçıvan Muxtar Respublikasının Ali Məclisi ilk dəfə 20 Yanvar faciəsi ilə bağlı tarixi qərar qəbul etdi. Heydər Əliyev hakimiyyətə qayıtdıqdan sonra ilk olaraq Şəhidlər xiyabanını ziyarət etdi. Və elə yerindəcə tapşırıq verdi ki, qısa müddətdə bütün şəhid məzarları abadlaşdırılsın və burada memorial kompleks ucaldılsın. Dövlət səviyyəsində lazımi vəsait ayrıldı və bu iş qısa zamanda başa çatdırıldı. Məhz Ulu Öndərin sərəncamı ilə 20 Yanvar Ümumxalq Hüzn Günü elan olundu..."





Məruzəçi qeyd etdi ki, ulu öndər Heydər Əliyevin siyasi kursunu uğurla davam etdirən Prezident İlham Əliyev 20 Yanvar faciəsində qətlə yetirilənlərin, müharibə veteranlarının, şəhid ailələrinin, əlillərin problemlərinin dövlət səviyyəsində həllini mühüm vəzifələrdən biri kimi qarşıya qoyub. Ölkəmizdə bu istiqamətdə böyük tədbirlər həyata keçirilir. Şəhid ailələrinin, əlillərin sosial təminatı ildən-ilə daha da möhkəmləndirilir. Ölkənin iqtisadi durumunun yüksəlməsi özünü bu qəbildən olan insanların həyat və məişətində daha qabarıq göstərir. Dövlət başçısının Şəhidlər xiyabanı kompleksinin yenidən qurulması ilə bağlı sərəncamı Vətən şəhidlərinin xatirəsinə ehtiramın daha bir nümunəsinə çevrildi. Prezident İlham Əliyevin sərəncamına əsasən, Şəhidlər xiyabanı vahid kompleks kimi yüksək səviyyədə yenidən quruldu, abadlaşdırıldı...

Bu il xalqımız 20 Yanvar hadisələrinin 27-ci ildönümünü qeyd edir, igid övladlarının fədakarlığını və əziz xatirəsini böyük ehtiramla xatırlayır. Bu qədirbilənlik həm də o deməkdir ki, az keçməyəcək Qarabağda da eyni mətinliklə qələbə qazanacağıq. Bu qələbəyə həm də Azərbaycanın bugünkü hərtərəfli uğurları, bütün dünyada gündən-günə artan nüfuzu, dövlətimizin başçısı, Ali Baş Komandan İlham Əliyevin bu istiqamətdə qətiyyətli addımları da zəmanət verir.

Sonda tədbir iştirakçılarına Bəxtiyar Vahabzadənin "Şəhidlər" muğam kompozisiyası və Uşaq Teatr kollektivinin təqdimatında 20 Yanvar faciəsinə həsr edilmiş "Vətən" adlı tamaşa təqdim edildi.

* * *

Yanvarın 19-da Hərbi Dəniz Qüvvələrinin "N" hərbi hissəsində də 20 Yanvar faciəsi ilə bağlı tədbir keçirildi. Həzi Aslanov adına Mərkəzi Zabitlər Evinin kollektivi mərasimdə iştirak edirdi. Tədbir iştirakçıları hərbi hissənin klubuna toplaşmışdılar.

2-ci dərəcəli kapitan Ömər Allahverdiyev tədbiri giriş sözü ilə açaraq bildirdi ki, müstəqilliyimizin əldə olunmasında ən önəmli səhifə 20 Yanvar hadisələri ilə bağlıdır. "O zaman Azərbaycan xalqı Sovet imperiyasının yeritdiyi ayrıseçkiliyə, özbaşınalığa son qoymaq tələbi ilə küçə və meydanlara axışdı. Dağlıq Qarabağın əzəli və əbədi torpaqlarımız olduğunu, bunun Ermənistanın tərkibinə verilməsinə yol verməmək üçün Sovet rəhbərliyinə qarşı etirazlarını mitinqlər keçirməklə bildirdi. Sovet rəhbərliyi daşnakların qaldırdığı əsassız iddialara qarşı tədbir görmək əvəzinə, Azərbaycan xalqının haqq səsini yerində boğmağa çalışdı və qırğınlar törətməkdən çəkinmədi."

Sonra çıxış üçün söz polkovnik-leytenant Elşən Vəliyevə verildi. Zabit bildirdi ki, imperiyanın tərkibində yaşadığımız dövrdə milli dəyərlərimizin yaşanmasına imkan verilməyib. "Lakin xalqımız dövlətçilik ənənələrinə malik olduğu üçün həmişə mübarizlik ruhunda olub. Buna görə də imperiya rəhbərliyinin Azərbaycana qarşı haqsızlığı xalqın böyük etirazına səbəb oldu. Buna baxmayaraq 1990-cı ilin yanvarın 19-dan 20-nə keçən gecə Sovet qoşunları Bakıya yeridildi. O müdhiş gecədə silahlı dəstələr dinc əhalini güllələbaran etdilər. Zirehli texnikalar şəhərin mərkəzi küçələrində göründü. Tankların tırtılları altında əzilən insanlar, avtomobillər vəhşiliyin pik nöqtəsi idi."

Natiq çıxışında onu da qeyd etdi ki, o zaman Moskvada yaşayan ulu öndər Heydər Əliyev faciənin ertəsi günü Azərbaycanın Moskvadakı nümayəndəliyinə gələrək Sovet rəhbərliyinə öz kəskin etirazını bildirib.

Həzi Aslanov adına Mərkəzi Zabitlər Evinin mədəni-kütləvi iş bölməsinin müdiri Gülxar Məmmədova da qanlı yanvar hadisələri ilə bağlı çıxış etdi.

Rəsmi hissədən sonra Həzi Aslanov adına Mərkəzi Zabitlər Evinin Mahnı və Rəqs Ansamblının solistlərinin ifasında əbədi-bədii kompozisiya təqdim edildi.



* * *

Ümummilli liderimiz Heydər Əliyev xalqımızın ağrı-acılarını yaşadığı 20 Yanvar faciəsindən bəhs edərkən demişdir ki, XX əsr tarixində totalitarizmin törətdiyi ən qanlı terror aktlarından biri olan 20 Yanvar faciəsində Azərbaycan xalqına qarşı işlədilmiş cinayət, əslində, bəşəriyyətə, humanizmə, insanlığa qarşı həyata keçirilmiş dəhşətli bir əməldir... "1990-cı ilin Qanlı Yanvarında Azərbaycanın azadlığı və müstəqilliyi uğrunda şəhidlik zirvəsinə ucalmış Vətən övladları özlərinin fədakarlığı, şəhidliyi ilə xalqımızın qəhrəmanlıq salnaməsinə parlaq səhifələr yazdılar."



20 Yanvar faciəsinin 27-ci ildönümü ərəfəsində zabit və əsgərlər, kursantlar da müstəqilliyimiz naminə şəhid olanları ehtiramla yad edibər.

C.Naxçıvanski adına Hərbi Liseydə də 20 Yanvar şəhidlərinin xatirəsi həmişə əziz tutulur. Hərbi Liseyin bir qrup şəxsi heyəti Şəhidlər xiyabanını ziyarət etdi. Ziyarətçilər həm 20 Yanvar faciəsində, həm də Vətənimizin ərazi bütövlüyü uğrunda müharibədə şəhid olmuş oğul və qızlarımızın məzarlarının üstünə gül dəstələri qoydular. Onların yolunu şərəflə davam etdirəcəklərini, amallarına sadiq olacaqlarını bildirdilər.

Şəhidləri ziyarətə gəlmiş zabit və kursantlarla görüşüb söhbət etdim. İlk həmsöhbətim polkovnik-leytenant Kamran Nəsibov dedi:

- Bu hadisələr bir daha göstərdi ki, müstəqillik asanlıqla qazanılmır. 20 Yanvar şəhidləri azadlığımız və müstəqilliyimiz uğrunda həlak oldular. Buna görə də 20 Yanvar günü həm də tariximizin ən şərəfli bir səhifəsidir. Bu günü qürur və qəhrəmanlıq günü kimi qeyd edirik. Böyüməkdə olan nəsillər qəhrəmanlığı, igidliyi və mübarizliyi həmin qanlı gecədə şəhid olanlardan öyrənirlər.

- O soyuq qış gecəsində müstəqillik arzusu ilə meydanlara çıxan xalqımızın övladlarını güllələbaran etmiş imperiya əsgərlərini mən də lənətləyirəm, - deyə kursant İdris Məmmədov söhbətimizə qoşuldu. - 20 Yanvar günü ölkəmizin vətəndaşları böyük hünər və rəşadət göstərdilər. Təpədən-dırnağadək silahlanmış hərbçilərin qarşısından geri çəkilmədilər. Qətiyyət və cəsarətləri ilə onlara meydan oxudular. Baş verən bu hadisə bir daha göstərdi ki, xalqımızın oğul və qızlarının qanı tökülsə də məğlub olmadıq. Azadlığımızı, müstəqilliyimizi qazandıq. Bizim borcumuz isə qazanılmış bu müstəqilliyi göz bəbəyimiz kimi qorumaqdır.

Kursantlardan Şöhrət Quliyev, Elmin Məmmədov, Əli Quliyev, Murad Rəhimov, Soltan Soltanlı və başqaları da xalqımızın azadlığı və müstəqilliyi naminə qurban getmiş şəhidlərin qəhrəmanlıq yolunu davam etdirəcəklərinə söz verdilər.

**"Azərbaycan Ordusu"**

# “Azadlıq verilmir, alınır!”

*20 Yanvar şəhidliyi müstəqilliyimizi İmperiyadan aldı. Azərbaycanın dövlət müstəqilliyi bərpa olundu...*




1920-ci ilin aprelindən 1990-cı ilin yanvarına kimi xalq müstəqilliyinə yol gəlirdi. Yaşamaq, tarixdə qalmaq, tarix yaratmaq üçün mübarizə aparırdı. Sibir xofundan, Lefortovo vahiməsindən, “KQB” şərindən çəkinmirdi. Azadlığı zərrə-zərrə, qram-qram istəmirdi, qoluna qondarılmış ilhaq zəncirini qırmaq istəyirdi. Nə 1937-nin, nə də sonrakı illərin siyasi burulğanları xalqın əzmini, iradəsini sarsıda bilmədi. İmperiya duyurdu ki, "yatmış vulkan" (M.Araz) oyanacaq, Azərbaycan nəyin bahasına olursa-olsun, müstəqilliyinə çatacaq...

"Yatmış vulkan" 1988-də oyandı.

İmperiya bu vulkanın qəzəbindən çəkinirdi, üzə vurmasa da qorxurdu. Hiss edirdi ki, siyasət zənciri Azərbaycanda qırılacaq...

"Oyanmış vulkanı" söndürmək, xalqın iradəsini yaralamaq, mübarizə əzmini paralamaq, 70 il əvvəlki tarixindən birdəfəlik aralamaq məqsədilə Bakıya qoşun yeritdi. Güman edirdi ki, 20-ci ilin aprelində necə qarşılanmışdısa, yenə elə qarşılanacaq. Belə olmadı, xalq geri çəkilmədi; tanklar amal, Vətən sevgisi səddiylə üzləşdi...

İmperiya 19 yanvar gecəsi Bakıda qətliam törətdi...

O gecə İmperiya qadağan olunmuş güllələrlə qəddarlıq tarixi yazdı, xalq isə illər çəkən müstəqillik mübarizəsinin son mərhələsinin tarixini...

O gecədən 27 il keçir. Neçə 27 illər də keçəcək, o şəhidlik, o gecə şəhid olanlar unudulmayacaq. Müstəqilliyimiz onların ruhuna gözaydınlığı oldu. Torpaqlarımızın işğaldan azad edilməsi bütün şəhidlərimizə gözaydınlığı olacaq...

Şəhidlərimiz mənəvi borcödəmə kimi həmişə, hər yerdə qədərsiz ehtiramlarla anılır...

...Şəhidlərin xatirə abidəsi önünə güllər qoyulur. Aşağı sinif şagirdlərinin baxışlarında uçunan qəhər aydınlığıyla sezilir. Bu yaşda uşaqlar da şəhidliyin nə olduğunu dərk edir, şəhidlərə ehtiramın vacibliyini - mənəvi borcödəmə olduğunu dərk edir...

Sumqayıt şəhərindəki texniki təbiət liseyində Cəmilə Süleymanovanın ssenarisi əsasında "Qəhrəmanlar can verir yurdu yaşatmaq üçün" devizi ilə təşkil edilən anım mərasimi toplaşanları - məktəbin şagirdlərini, müəllimlərini, Qarabağ müharibəsi veteranlarını, əlillərini 27 il əvvələ qaytarır; qanlı şənbə gecəsinin dəhşətləri kəlmə-kəlmə yenidən yaşanılır. Düşüncələrdə güllə səsləri, yaralananlar, son nəfəsini çəkənlər, "Təcili yardım"lara dəyən güllələr, dayanmış maşınları çiğnayıb keçən tanklar, "Azadlıq! Müstəqillik!" harayı, ana fəryadı, bacı faciəsi, ...

...Tədbir məktəbin akt zalında davam edir...

Baxışlar dil açıb danışasıdı. Şagirdlər bu günün niyə bu qədər ehtiramla, bu qədər kövrəkliklə, qürurla anıldığını yaxşı bilir. Bir az əvvəl xatirə abidəsinin önünə qərənfillər düzən məktəblilərin akt zalında nələr düşündüyünü təxmin etmək çətin deyil: "şəhidlərə xitabən 20 Yanvar faciəsi heç zaman unudulmayacaq. Siz müstəqilliyimizə görə şəhid oldunuz. Hər birimiz hər birinizin davamçısı olacaq. Biz yaxşı oxuyacağıq, sizin arzuladığınız kimi böyüyəcəyik, sizin arzuladığınız kimi vətəndaş olacağıq. Şəhidliyinizlə nail olduğunuz müstəqilliyi biz göz bəbəyi kimi qoruyacağıq"- deyirdi o dumduru baxışlar. Tədbir ərəfəsində şagirdlər aparıcılara baxırlar - aparıcıların deyəcəklərini yaddaşlarına köçürəcəklər. O kəlmələri, o mətləbləri yaşayacağı illərə ağ işıq biləcəklər. O ağ işıq müstəqilliyimizin işığıdı...

Uvertüra hamını duyğulandırır, hamının Vətənə bağlı ürəyini coşdurur, 19 yanvar gecəsinin harayı kimi səslənir; "19 yanvar gecəsinin müstəqilliyimizin başlanğıcı olduğu unudulmayacaq" qənaətinin musiqi yozumudu sanki...

20 Yanvar şəhidlərinin ruhu bir dəqiqəlik sükutla yad edilir. Bu, müqəddəs sükutdu, mənəvi borc sükutudu. Hamı bu sükutu and bilir. Həm də müasir Azərbaycanın dövlətçilik memarı olan Heydər Əliyevin "Müstəqilliyimiz əbədidir, dönməzdir" kəlamına dönməz inamla...

Məktəbin direktoru Rüxsarə Məmmədova çıxışında xalqımızın müstəqillik uğrunda mübarizəsindən, 20 Yanvar şəhidliyindən danışaraq deyir ki, o gecə təsdiqləndi ki, heç bir siyasi güc, heç bir siyasi təzyiq Azərbaycan xalqının mübarizə əzminə, müstəqillik niyyətinə təsir etməyə qadir deyil. Şəhidlərimiz həmişə anılıb, anılır, həmişə anılacaq. Sonra şagirdlərə xitabən: "20 Yanvar şəhidliyinin aldığı müstəqilliyi siz qoruyacaqsınız", - deyir...

...Aparıcılar hərbi səhra geyimindədi. "Hər birimiz Vətən üçün bir əsgərik" anlamında rəmzdi. Şagirdlər onların dediklərini hansı maraqla dinləyirlərsə, özlərinə də həmin maraqla baxırlar; hərbi səhra geyimi onları da, onlara həsəd aparan şagirdləri də, tədbirdə iştirak edən Qarabağ müharibəsi veteranlarını da, əlilləri də, bizi də duyğulandırır...

Aparıcılar 1918-ci ilin 28 mayını xatırladır; şərqdə ilk demokratik cümhuriyyətin yarandığı günün müstəqilliyimizin təntənəsi olduğunu, dövlətçilik tariximizdə həmişə qürurla xatırlandığını bildirirlər. Hər kəlmə tarixi keçmişimizə sevginin ifadəsidi. Onu da qeyd edirlər ki, "Bir dəfə yüksələn bayraq bir daha enməz". Yüksəlmiş bayrağımıza 1920-ci ilin aprelində qəsd edildi, ADR süquta uğradıldı. Lakin xalq müstəqilliyini bərpa etmək üçün yenidən mübarizə apardı. Təqiblərlə üzləşsə də, siyasi sıxıntılara salınsa da, öz yolundan - düz yolundan dönmədi. Xalqımızın müstəqilliyini istəməyənlər, onu ilhaq sıxılcımında saxlamaq istəyənlər elə güman edirdilər ki, xalqımızın dövlətçiliyi sona çatıb. Qəsd elədiyi bayraq bir daha yüksəlməyəcək. Yanılırdılar. Xalqımızın iradəsinə yaxşı bələd deyildilər. Xalqımız tarixi axarından çıxardanların gümanını çiliklədi. Təsdiqlədi ki, bayrağımızı yüksəltməyə qadirik və bu bayraq əbədiyyən enməyəcək.




1990-cı ilin yanvarında xalqımızın milli-azadlıq hərəkatı qılınc kimi qınından sıyrıldı - imperiyanın əzmini doğradı...

20 Yanvar şəhidliyi dövlətçiliyimizə xor baxanların gözlərini qamaşdırdı.

Aparıcılar Cavanşiri xatırladırlar, Babəki, Xətaini, Cavad xanı, Qaçaq Nəbini, Qaçaq Kərəmi,... xatırladırlar. Bu xatırlatmalar özlüyündə bir mətləb üçündü: xalq həmişə azadlığı, müstəqilliyi uğrunda mübarizə aparıb. Bu mübarizələrdə şəhidlər də olub; milli-azadlıq hərəkatı şəhidlikdən keçir, xalqın istəyi, amalı şəhidliklə gerçəkləşir. Aparıcıların "Xalqımız zaman-zaman tarix yaradıb. Qətiyyəti ilə, əzmi ilə, iradəsi ilə tarixin axarını dəyişib". Belə deyirlər, özləri də qürurlanırlar, iştirakçıları da qürurlandırırlar.

Aparıcıların təqdimatında video-görüntülərin müşayiətiylə tariximizin müxtəlif çağları xatırlanır, qəhrəmanlarımız anılır...

Xatırlayıram ki, 19 yanvar gecəsi mübarizlərin sırasında bu yaşda uşaqlar da vardı. Soyuğuydu, şaxtaydı. O uşaqlardan biri evlərindən gətirdiyi paltonu bir az əvvəl üşüdüyünü hiss elədiyi orta yaşlı kişiyə verdi. Bir başqası termosda çay gətirdi; evləri yaxındaymış, ... Onda o uşaqların kimliyini soruşan olmadı. Hamı düşündü: bu millətin yeniyetməsidi. Şagirdlərin təqdim etdiyi səhnəcik mənə həmin gecəni xatırladır: ana mübarizlərin yanına gedən oğlunu ləngitmək istəyir. Yeniyetmə qətiyyətlə "Hamımız orda olmalıyıq. Xalqın sırasında" - deyir. Ana ani olaraq duruxur. Sonra oğlunun boynuna sarılıb onu uğurlayır: "Get, ay bala, belə bir vaxtda xalqın arasında olmayan oğula oğul deyilməz... "...

27 il əvvəlin bir gecəsinin minlərlə belə mükaliməsəşməsini bu səhnəcik ümumiləşdirir. Şagirdlər obrazların daxili aləmini dərindən dərk edir, bu günümüzə 19 yanvar gecəsinin belə anlarından baxır. Ata-ana söhbətinin, müəllim söhbətinin davamı kimi...

Nicatın, Rəhimin, Arzunun, Şahpərinin, Aslanın, Vüqarənin, Vidadinin dediyi şeir parçaları tədbirin mahiyyətinin dərkinə yönəldilib. "Məsləkimiz Vətən sevgisinin işığıdı" deyir şagirdlər, "Oğul olmalıdır hər kəs Vətənə" deyir şagirdlər, "Millətini sevən, xalqını sevən doğma övlad olar bəşəriyyətə" deyir şagirdlər, "Qəhərimiz olan şəhidlər həm də qürurumuzdu" deyir şagirdlər...

Nüşabəylə İsgəndərin mükaliməsəşməsinin təqdimi təsadüfi deyil. Bir fatehi təfəkkürüylə, dönməz məntiqiylə, başlıca olaraq Vətən sevgisiylə susduran, heyrətləndirən Nüşabə qeyrətli anaların övladlarıdı şəhidlərimiz. Buna biz də inandıq, şagirdlər də. Onsuz da milli mənsubiyyətindən asılı olmayaraq 19 yanvar gecəsinin mahiyyətini dərk edən hər kəs buna qətiyyən şübhə etmir...

Aparıcılardan birinin - Nərminin dediklərini bu günün şagirdlərinin dumduru inamı bilirəm: "...Qüdrətli ordumuz tarixiylə qürurlandığımız torpaqlarımızı tezliklə işğaldan azad edəcək!". Bu inam apreldə təsdiqləndi - Lələtəpədə, Bayraqtəpədə.

"Sülh danışıqları baş tutmasa, Azərbaycan əsgəri torpaqlarımızı işğaldan döyüşlə azad edəcəkdir" - inamını o qədər inamla, o qədər sevgilərlə deyirlər ki! Bu günün məktəbliləri sabahın fəal qurucularıdır. Onların hər biri milli-azadlıq hərəkatımızın mübarizlərinin arzuladığı kimi sevəcəklər Vətəni, torpağı, xalqı. Sumqayıt şəhərindəki texniki təbiət liseyinin şagirdlərinin timsalında xalqını sevən, dövlətçiliyini, dövləti sevən yeniyetmələrə necə qürurlanmayasan?!

...20 Yanvar şəhidlərinin anım gününün bu səviyyədə təşkili hamıya könül xoşluğu verir. Məktəbin direktor müavini Ətrabə Tağıyeva deyir ki, şagirdlərin biliklərə mükəmməl yiyələnməsi qədər də onları cəmiyyətə yüksək mənəvi hazırlıqlı vətəndaş kimi uğurlamaq istəyirik.

- Bu qəbil tədbirlər istəyimizə yardımçı olur. Tədbirdə səsləndirildiyi kimi, Ulu Öndərin bir kəlamı pedaqoji kollektivimizin fəaliyyətinin başlıca qayəsidir: "Hər bir gənc vətənpərvər olmalıdır. Vətənpərvərlik sadəcə orduda xidmət etmək deyil. Vətənə sadiq olmaq, Vətəni sevmək, torpağa bağlı olmaq - budur, vətənpərvərlik!"...

Tədbir bu kəlama sədaqət ruhuyla başa çatır.

Şəhidliyə, şəhidlərə ehtiram da vətənpərvərlikdi...

**Rəşid HÜSEYNOV,**
**əməkdar jurnalist**



# 20 Yanvar - yeniyetmələrimizin dili ilə

*Zaman ötür, fəsillər dəyişir, illər əsrlərə, əsrlər minilliklərə çevrilir, tarixə dönür. Zamanın gedişində bir çox hadisələr baş verir. Bəziləri müəyyən dövrdən sonra yaddan çıxır, unudulur. Lakin elə tarixi hadisələr var ki, heç vaxt unudulmur, nəsillər bir-birini əvəz etdikcə yaddaşlarda xatırlanır. Çünki bu hadisələr bütöv bir xalqın, millətin həyatında qürur duyulacaq izlər qoyub... 1990-cı ilin 20 Yanvar faciəsi də belə hadisələrdəndir. Artıq 27 ildir ki, xalqımız Vətənimizin azadlığı və suverenliyi uğrunda canlarından keçmiş mərd oğul və qızlarımızın xatirəsini dərin hörmət və ehtiramla yad edir. 20 Yanvar Azərbaycanın tarixində təkcə faciə, hüzn günü deyil, həm də istiqlal yolumuzun ilk zirvəsi, milli məfkurəmizin oyanış günüdür. İmperiya ordusu tərəfindən dinc əhaliyə qarşı kütləvi qırğın hadisəsi törədilməsinin əsas məqsədi Azərbaycan xalqının iradəsini qırmaq, insanların müstəqillik arzularını puça çıxarmaq idi. Şər imperiyası günahsız insanların qanını axıdaraq xalqımıza qarşı misli görünməmiş qəddarlıq etsə də, milli qürurumuzu qıra bilmədi. Bəs gələcəyimizin təminatı olan gənc nəsil bu haqda nə bilir? Bu suala cavab tapmaq məqsədi ilə Bakının Binəqədi rayonundakı şəhid Seymur Məmmədov adına 301 saylı məktəbə üz tutduq.*

*Ümummilli lider Heydər Əliyevin "20 Yanvar faciəsi mənim üçün xalqımızın ən ağır faciəsidir. Amma eyni zamanda 20 Yanvar Azərbaycan xalqının mərdlik, qəhrəmanlıq və şəhidlik zirvəsinə qalxmasının əyani nümayişidir" sözləri ilə söhbətə başlayan məktəbin direktoru Məmməd Səfərov 20 Yanvar şəhidlərinin Azərbaycanın tarixinə parlaq səhifələr yazaraq xalqın milli azadlığı, müstəqilliyi üçün yollar açdığından danışdı. Həmin faciəli günlərdə ölkəsinin, xalqının azadlığını, şərəf və ləyaqətini hər şeydən uca tutan mərd oğul və qızlarımızın müasir gənclərimizə örnək olmasını və təhsil ocaqlarında da şagirdlərin bu ruhda tərbiyə olunduğunu bildirdi.*

Məktəbimizdə də hər il 20 Yanvar şəhidlərinin anım günləri keçirilir. O qanlı gecənin canlı şahidləri bizimlə görüşə dəvət olunur. Biz xalqımızın başına gətirilən müsibətləri bir an belə olsun unutmamalıyıq. Müstəqilliyimizi qoruyub möhkəmlətmək, Vətənimizin adını daha da yüksəklərə ucaltmaq üçün dərslərimizi yaxşı oxumalıyıq.

**Fidan Məhəmmədzadə,**
**7-ci sinif**

1990-cı ilin yanvar qırğını nə qədər faciəli olsa da, Azərbaycan xalqının iradəsini, milli azadlıq uğrunda mübarizə əzmini qıra bilmədi. Həmin müdhiş gecədə həlak olan qorxubilməz oğullar xalqımızın tarixinə parlaq səhifə yazdılar. Xalqın milli azadlığı, müstəqilliyi üçün yol açdılar...

**İlhamə Həsənli,**
**9-cu sinif**

Hər dəfə Şəhidlər xiyabanını ziyarət edib, məzarları üstünə tər qərənfillər düzərkən düşünürəm ki, müstəqilliyimizi qorumaq üçün mən də öz üzərimə düşən vəzifənin öhdəsindən layiqincə gəlməliyəm.

**Aysu Süleymanova,**
**6-cı sinif**

20 Yanvar faciəsinin şəhidlərini daim böyük ehtiramla yad edirik. Onlar müstəqil, firavan yaşamağımız üçün canlarını fəda ediblər.

**Vüsal Kərimov,**
**5-ci sinif**



Müəllimlərimiz bizə imperiyanın xalqımıza qarşı həyata keçirdiyi hərbi təcavüzün insanlığa qarşı törədilmiş ən ağır cinayətlərdən biri olduğunu, milli azadlıq və ərazi bütövlüyü uğrunda mübarizəyə qalxmış yüzlərlə günahsız insanın qətlə yetirildiyini və yaralandığını, lakin bu yolda bir an olsun belə tərəddüd keçirmədiklərini daim xatırladırlar.

**İsrafil Xeyirbəyov,**
**9-cu sinif**

1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə azğınlaşmış imperiya tərəfindən Azərbaycan xalqına qarşı terror aktı həyata keçirilib. Azadlıq harayını boğmağa yönəlmiş bu insan qırğını öz canını Vətən yolunda qurban verənləri cənnətə, Azərbaycanı isə müstəqilliyə qovuşdurdu.

**Nəcməddin Bayramov,**
**6-cı sinif**

O müdhiş gecədə həlak olanlar Azərbaycanın tarixinə parlaq səhifə yazdılar. Xalqın milli azadlığı, müstəqilliyi uğrunda mübarizlərin sırasında 13 yaşlı Larisa və İlqar, 14 yaşlı Nəriman, 16 yaşlı Vera da var idi. Bu isə bir daha təsdiq edir ki, Vətən sevgisi yaşla ölçülmür.

**Qurban Nəhmətov,**
**7-ci sinif**

Hər dəfə Neftçala rayonuna gedəndə babamla rayonun mərkəzindəki Yanvar şəhidlərinin abidəsini ziyarət edirəm. Faciənin canlı şahidi olan babam bildirir ki, bu hadisələr yanvarın 25-də Neftçalada, 26-da isə Lənkəranda davam edib... Şəhidlər verilib. Bu söhbətləri dinlədikcə başa düşürəm ki, bugünkü müstəqilliyimiz canlar, qanlar bahasına qazanılıb.

**Zeyd Tağızadə,**
**5-ci sinif**

20 Yanvar Azərbaycan xalqının hüzn və şərəf günüdür. Xalqımız bu faciədə qurban getmiş övladlarına matəm saxlamaqla bərabər, eyni zamanda onların şəhidlik zirvəsinə baxaraq başını dik tutur. Çünki Vətən və torpaq öz şəhidləri ilə ucalır.

**Murad Quliyev,**
**8-ci sinif**

Bir gün ərzində Bakıda 147 nəfər öldürüldü, 700-dən çox insan yaralandı, yüzlərlə adam qanunsuz həbs edildi. 1990-cı ilin 20 yanvar günü Azərbaycanın azadlığı və ərazi bütövlüyü uğrunda mübarizə tarixinə qəhrəmanlıq səhifəsi kimi daxil oldu...

**Səbinə Əlimərdanova,**
**8-ci sinif**

Bakının ən yüksək nöqtələrindən birində hər bir azərbaycanlı üçün müqəddəs and yerinə çevrilmiş bir yer var. 20 Yanvar qurbanlarının və ərazi bütövlüyümüz uğrunda döyüşlərdə həlak olanların dəfn edildiyi Şəhidlər xiyabanı. Hər dəfə bu ünvanı sadəcə ürəkağrısı, göz yaşları ilə deyil, həm də qürurla, fəxrlə ziyarət edirik.

**Seymur Məmmədov,**
**9-cu sinif**

*Məktəblilərin 20 Yanvar faciəsi ilə bağlı fikirlərini dinlədikdən sonra bir daha əmin oldum ki, onlar da azyaşlı olmalarına baxmayaraq Vətənin azadlığı və müstəqilliyi uğrunda həqiqətləri dərk edirlər. Bakının ən yüksək zirvəsində salınmış Şəhidlər xiyabanı onların da ziyarətgahıdır. Burada alovlanan məşəl isə heç vaxt sönməyəcək. Çünki bu məşəl öz alovunu, odunu şəhidlərin Vətənə, torpağa sevgisindən, azadlıq eşqindən götürüb. İllər ötəcək, nəsillər dəyişəcək, lakin şəhidlərimizin xatirəsi ürəklərdə daim xatırlanacaq.*

**Leytenant**
**Günay TAĞIYEVA,**
**"Azərbaycan Ordusu"**

# Xəbərlər:

## hadisələr, faktlar

### İstanbulda antiterror əməliyyatı zamanı 5 şübhəli şəxs saxlanılıb



Türkiyə təhlükəsizlik qüvvələri İstanbulun "Okmeydanı"nda DHKP-C terror qruplaşmasına qarşı birgə əməliyyat keçiriblər.

Helikopterlə müşayiət olunan və xüsusi təyinatlıların iştirakı ilə keçirilən əməliyyat nəticəsində 5 nəfər saxlanılıb.

Təhlükəsizlik qüvvələri DHKP-C-nin Gənclik Federasiyasının ofisində apardıqları axtarış zamanı qruplaşmaya aid xeyli sənəd müsadirə ediblər. Şübhəlilər saxlanılaraq müayinə üçün xəstəxanaya aparılıblar.

### Tacikistan: Baş qərargah rəisi avtomobil qəzasında həlak olub



Tacikistan Müdafiə nazirinin birinci müavini, Silahlı Qüvvələrin Baş qərargah rəisi general-mayor Zərif Bobokalonov bu gün axşam avtomobil qəzasında həlak olub.

Qəza Düşənbənin mərkəzində, qərargah rəisi evinə gedərkən baş verib. Avtomobilin sükanı arxasında onun özü olub. İlkin versiyaya görə, kəskin ürəktutması keçirən generalın avtomobili başqa maşınla toqquşub.

Qırx altı yaşlı Zərif Bobokalonov bu vəzifəyə üç il əvvəl, 2014-cü il yanvarın 18-də təyin edilmişdi.

### Çin zəlzələni öyrənmək üçün elektromaqnit monitorinq peyki buraxacaq



Çin zəlzələ barədə məlumat əldə etmək üçün kosmosa elektromaqnit monitorinq peyki göndərməyi planlaşdırır.

Cari ilin ikinci yarısında kosmosa göndəriləcək peyk Çin hüdudlarında və ona bitişik ərazilərdə yer səthində baş verən dəyişikliklərin yaratdığı elektromaqnit şüalanmanı müşahidə edəcək. Toplanılan məlumatlar əsasında zəlzələ ehtimalına dair proqnoz veriləcək.

Çin Zəlzələ Administrasiyasının rəsmisi Şen Suhuy bildirib ki, bu, Çinin kosmosda zəlzələ monitorinqi aparan ilk peyki olacaq. Beş il kosmosda qalması nəzərdə tutulan peykdən naviqasiya məqsədilə də istifadə olunması istisna edilmir.

### Terror qruplaşmasının başçısı məhv edilib



Pakistanın Pəncab əyalətində "Laşkar-e Canqvi" terror qruplaşmasının başçısı Asif Çotu və daha 3 terrorçu məhv edilib.

Pakistan mətbuatının verdiyi məlumata görə, polislər qruplaşmanın Laxor şəhərində ölkənin hüquq-mühafizə orqanlarının əməkdaşlarına qarşı terror aktı planlaşdırdığı barədə məlumat alıblar. Polislər həmin ərazidə xüsusi əməliyyat hazırlayıb və terrorçular məhv edilib.

### Malidə partlayış nəticəsində həlak olanların sayı 77 nəfərə çatıb



Malinin şimal-qərbində törədilən partlayış nəticəsində həlak olanların sayı 77 nəfərə çatıb.

İnsident Qao şəhərində yerləşən hərbi düşərgənin ərazisində baş verib. Minalanmış avtomobil vasitəsilə həyata keçirilən partlayışın məsuliyyətini "Əl-Murabitun" qruplaşması üzərinə götürüb.

Malinin Prezidenti İbrahim Bubakar Keyta ölkədə üçgünlük matəm elan edib.

**AZƏRTAC-ın**
**materialları əsasında**

# Ordu pəhləvanlarının qələbəsi

## Güləş üzrə Azərbaycan çempionatında MOİK idmançıları uğurla çıxış ediblər

*Bakı İdman Sarayında sərbəst və yunan-Roma güləşi üzrə böyüklər arasında növbəti Azərbaycan çempionatı başa çatıb.*




Üç gün davam etmiş yarışlarda sərbəst və yunan-Roma güləşi üzrə 400-dən artıq idmançı medallar uğrunda mübarizə aparıb. Azərbaycan Güləş Federasiyasından verilən məlumata görə, Gənclər və İdman Nazirliyi və federasiyanın birgə təşkilatçılığı ilə keçirilən yarışlarda 18 yaşdan yuxarı idmançılar iştirak ediblər. Şəxsi xarakter daşıyan yarışlarda idman cəmiyyətləri, şəhər və rayon yığma komandalarının tərkibinə daxil olan idmançılar mübarizə aparıblar. Dünya Güləş Birliyinin qaydalarına əsasən, yarışlar Azərbaycan Güləş Federasiyası Hakimlər Kollegiyasının təyin etdiyi hakimlər tərəfindən idarə olunub.

Çempionatın açılış mərasimində Gənclər və İdman Nazirliyinin rəsmisi, Olimpiya və ikiqat Dünya çempionu Fərid Mansurov çıxış edərək Azərbaycan Prezidenti İlham Əliyevin ölkəmizdə bədən tərbiyəsinə və idmana göstərdiyi diqqət və qayğıdan, habelə idmançılarımızın beynəlxalq yarışlarda qazandıqları uğurlardan söhbət açıb.

Azərbaycan Güləş Federasiyasının vitse-prezidenti Elçin Cəfərov da bildirib ki, ölkəmizin beynəlxalq Olimpiya hərəkatında fəal iştirakı, idmançılarımızın qazandıqları yüksək nəticələr bu sahəyə dövlət qayğısının təzahürüdür.

Natiqlər idmançılarımızın ciddi sınaq qarşısında olduqlarını vurğulayaraq, onların Bakıda keçiriləcək IV İslam Həmrəyliyi Oyunlarında uğurla çıxış edəcəklərinə əminliklərini bildiriblər.

Öncə döşək üzərinə sərbəst güləşçilərimiz çıxıblar və səkkiz çəki dərəcəsində mübarizə aparıblar. Sonra meydan yunan-Romalıların ixtiyarına verilib və onlar da səkkiz çəki dərəcəsində çempionatın medalları uğrunda yarışıblar.

Sevindirici haldır ki, Azərbaycan çempionatında Müdafiə Nazirliyi Mərkəzi Ordu İdman Klubunun idmançıları da iştirak edərək yüksək nəticələr qazanıblar. Yarışlara 18 idmançı ilə qatılan ordu pəhləvanları həm sərbəst, həm də yunan-Roma növlərində qaliblər sırasına düşməyi bacarıblar.

Sərbəst güləş yarışlarının ilk günündə MOİK-in təmsilçiləri Ağahüseyn Mustafayev (65 kq) və Əşrəf Əliyev (74 kq) uğurla yarışıblar. Bu mərhələdə onlar öz rəqiblərinə şans verməyərək çempionatın bürünc medallarını qazanıblar.




Yunan-Roma növündə isə ordu güləşçiləri daha yaxşı çıxış edərək 8 medal qazanıblar.

80 kq çəki dərəcəsində yarışan adlı-sanlı pəhləvanımız, dəfələrlə beynəlxalq yarışlarda ölkəmizi müvəffəqiyyətlə təmsil etmiş Rafiq Hüseynov bir daha sübut etdi ki, öz çəkisində Azərbaycanın ən güclü güləşçisidir. Ümumiyyətlə, bu çəkidə çempionatın bütün medallarını ordu idmançıları qazanıblar. Yarışlarda Nicat Abdullayev ikinci, Eltun Vəzirzadə isə üçüncü nəticə göstərərək adlarını çempionatın tarixinə yazdırıblar.

59 kq çəki dərəcəsində MOİK idmançısı Kərim Cəfərov yalnız finalda rəqibinə məğlub olaraq gümüş medala layiq görülüb. Murad Məmmədov isə çempionatın bürünc medalını qazanıb.

MOİK-in nümayəndələri Şirxan Quliyev (71 kq), Soltan İsmayılov (85 kq) və Orxan Ələkbərov da (98 kq) uğurla mübarizə apararaq çempionatın bürünc medalını qazanıblar.

- Ordu güləşçilərimizin nəticələri bir daha göstərir ki, Müdafiə Nazirliyində fiziki hazırlıq və idmana lazımınca diqqət və qayğı göstərilir, - Mərkəzi Ordu İdman Klubunun rəisi polkovnik-leytenant Rəşad Quliyev bildirdi. - İdmançılarımız hər dəfə beynəlxalq yarışlarda uğurla çıxış etdikdən sonra Müdafiə naziri general-polkovnik Zakir Həsənov tərəfindən qəbul edilib, mükafatlandırılıblar. Belə yüksək münasibət isə onları yeni-yeni uğurlara ruhlandırır.

Çəki dərəcələri üzrə ilk 3 yeri tutmuş idmançılar Azərbaycan Güləş Federasiyası tərəfindən müvafiq diplom, medal və pul mükafatı ilə təltif olunublar. Həmin güləşçilər ölkə yığma komandasının heyətinə cəlb ediləcək beynəlxalq yarışlarda Azərbaycanı təmsil etmək hüququ qazanıblar.

**Əbülfət QASIMOV,**
**"Azərbaycan Ordusu"**

*Ovqat*

# Bu şəkil bir arzu idi...

*Günəşin batmasına az qalır. Təlimatlandırılmış növbəti qrup döyüş postunda əsgər yoldaşlarını dəyişməyə yola düşməyə hazırlaşır. Bölük komandiri ilə biz də döyüşçülərlə birlikdə mövqelərimizə qalxmağa hazırlaşırıq.*

Məğrur duruşlu, igid görkəmli, qəlbləri əminliklə dolu cəsur əsgərlərimiz irəli addımlayır. Onların arxasınca gedirik. Bölük komandiri ilə əsgərlərimizin cəbhəboyu zonada xidmətindən, onların qayğılarından danışırıq. Əsgərlərdən razılıq hissi ilə danışan zabit hərbçilərimizin bütün çətinliklərə sinə gərərək Vətənin keşiyində daim ayıq-sayıq dayandıqlarını bildirir, tabeliyində olanlar haqqında xoş sözlər deməklə sanki mənəvi borcunu yerinə yetirdiyindən duyğulanır.

Bir anlığa ayaq saxlayıb qarşı tərəfdə düşmən mövqelərini göstərən baş leytenant vəziyyəti gərginləşdirmək məqsədilə işğalçıların tez-tez atəşkəs rejimini pozduqlarından, əsgərlərimizin təxribatlara hər an cavab verərək onları susdurduqlarından, həmçinin düşmənin bütün hərəkətlərini izlədiklərindən, hər hansı dəyişiklik baş verdikdə, müşahidə jurnalında qeydlər apararaq dərhal yuxarı komandanlığa məruzə etdiklərindən və müvafiq tədbirlər gördüklərindən danışır. Gənc zabit əsgərlərə güvəndiyini, onlara etibar etdiyini bildirir. Düşmənlə üzbəüz mövqedə istənilən hava şəraitində xidmət etdiklərini söyləyərkən səsindəki qətiyyəti, əsgərlərinə olan inamı da hiss edirsən. Yolumuza davam edəndə əsgərlərimizin ayaq izlərini fotoaparatın yaddaşına köçürürəm. Hərəkətimi maraqla izləyən baş leytenanta, "gün gələcək bu ayaq izləri işğaldan azad ediləcək bütün yurd yerlərimizdə olacaqdır" - deyirəm. Lələtəpə yüksəkliyinə yaxın mövqelərimizdə 2013-cü il yanvarın 24-nə təsadüf edən həmin hadisədən düz 4 il keçir.



2016-cı il aprelin əvvəllərində Lələtəpə yüksəkliyi düşməndən azad ediləndə həmin günü yenidən xatırladım. O vaxt xəyal etdiyim, arzuladığım günlərdən biri idi. Əsgərlərimiz bir neçə yüksəkliyi nəzarətə götürmüş, minlərlə hektar ərazimizi düşməndən azad etmişdi.

Bu gün yenə də inanıram ki, gün gələcək, işğaldan azad edilmiş bütün ərazilərimizdə əsgərlərimizin də, o yerlərlə gedənlərin də ayaq izləri bir-birinə qarışacaq...

**İsa İSMAYILOV,**
**hərbi jurnalist**

# Misir qəzeti erməni təxribatlarından yazır

Misirin "Masr əl-arabiyyə" qəzetində Ermənistan ordusunun bölmələrinin keçən ilin aprel və dekabr aylarında Azərbaycan Silahlı Qüvvələrinin bölmələri ilə təmas xəttində törətdikləri təxribatlardan bəhs edən məqalə dərc edilib.

Jurnalist Əymən əl-Əmin Ermənistan silahlı qüvvələrinin bölmələri tərəfindən cəbhə xəttində atəşkəs rejiminin pozulmasının təhlükəli miqyas aldığına diqqəti cəlb edib. Bildirib ki, bu kimi hallar genişmiqyaslı hərbi əməliyyatların yenidən başlanmasına gətirib çıxara bilər.

AZƏRTAC-ın yaydığı məlumatlardan da istifadə edən müəllif Ermənistanın bu təxribatları ilə üzv olduğu Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatını Dağlıq Qarabağ münaqişəsinə cəlb etmək istədiyini, lakin uğursuzluğa düçar olduğunu bildirir. Məqalədə Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı BMT Təhlükəsizlik Şurasının məlum 4 qətnaməsinin, İslam Əməkdaşlıq Təşkilatının və digər beynəlxalq təşkilatların qəbul etdikləri qərarların Ermənistan tərəfindən yerinə yetirilməməsi ilə regionda təhlükəsizliyə təhdidin qaldığı qeyd edilir.

**Məsul katib**
polkovnik-leytenant
İlham BEHBUDOV

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98
Məktublar şöbəsi: (012) 510-64-28;

**Ünvanımız**
Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi

**Növbətçi**
kapitan
Məhəmməd ƏLİYEV

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. "Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək "Hərbi nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.
Qəzeti mod.gov.az saytından oxuya bilərsiniz.

Lisenziya № 361
Sifariş № 25
Nüsxə 4650